# Türk dünyasının ən ciddi məsələsi ortaq dil problemidir

Category: Kitapcy,Türkmen dili
написано kitapcy | 23 января, 2025
Türk dünyasının ən ciddi məsələsi ortaq dil problemidir Türk dünyasının ən ciddi məsələsi ortaq dil problemidir

*AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, Bütöv Azərbaycan Ocaqlarının (BAO) Türk dünyasıyla əlaqələr üzrə müavini, dosent, fəlsəfə üzrə fəlsəfə doktoru İle sohbet*

M: Söhbətə Azərbycan və Türk dünyası arasındakı əlaqələrin mövcud vəziyyətindən başlayaq. Sizcə, ötən illərlə müqayisədə hər hansı fərq varmı və nədir?

F.Ə: Azəbaycan ilə Türk dünyası arasındakı əlaqələr hərbi, iqtisadi-syasi, mədəniyyət kimi bir çox sahələrdə xeyli irəliləmişdir. Bu ayrı sual ki, münasibətlərin bugünkü səviyyəsi yetərlidirmi? Ancaq fakt faktlığında qalır, Sovetlər Birliyinin dağılmasından sonra Azərbaycan-Türkiyə, eləcə də Azərbaycan ilə Qazaxıtan və Orta Asiya ölkələri arasında bir çox sahələrdə əlaqələr qurulmuş, inkişaf etdirilir. Hesab edirəm ki, mövcud vəziyyətlə kifayətlənmək olmaz, qarşılıqlı əlaqələrin inkişafında daha çox iş görülməlidir. Başqa sözlə, 20-25 il bundan əvvəl Türk dövlətləri arasında zəif münasibətlərin olduğu sirr deyil. Lakin tədricən, Türkdilli dövlətlərin sammitinin təsisi mövcud əlaqələrin inkişafında mühüm rol oynadı. Yeri gəlmişkən, türkdilli dövlətlər ifadəsi zənnimcə, yanlış ifadədir. Fikrimizə qayıtsaq, deməliyəm ki, daha sonra yaradılmış Türksoy, Türk Gənəşi, Türk Xalqlarının Parlament Assambleyası Türk dövlətləri arasındakı münasibətləri yeni bir mərhələyə daşımağa müvəffəq olmuşdur. O cümlədən Azərbaycan ilə Türk dünyası arasındakı əməkdaşlığı da

inkişaf etdirə bilmişdir. Bütün bunlar olduqca əhəmiyytəlidir. Lakin kifayətlənmək olmaz, movcud vəziyyəti bir üst səviyyəyə daşımaq lazımdır. Xüsusi ilə hərbi-siyasi sahə əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir.
Türk birlliyinin qurulmasında Türk dövlət başçılarının daha cəsarətli olması vacibdir. Unutmayaq ki, Rusiya, ABŞ və Avropa Birliyinin maraqları Türk dövlətləri arasındakı əlaqələrin inkişafına ziddir və ciddi maneədir. Amma bədgüman olmağa dəyməz. Belə ki, bütün çətinliklərə baxmayaraq, ötən dövrlə müqayisədə XX əsrin sonu-XXI əsrdə xeyli irəliləyişlər, əlaqələrdə yeni müsbət ilmələr var. Birgəlik davam edir. Yetər ki, bununla kifayətlənməyək, yerimizdə durmayaq.
Taleyüklü məsələlərdə Türk dövlətləri bir-birinə dəstək olmalıdır. Təəssüf ki, Qarabağ kimi problemdə bu birgəliyi görmürük. Bir zamanlar Qazaxıstan bir qədər həssaslıq gpstərirdi, indi o da geri addım attmış kimi görünür. Bu da təsadüf deyil. Rusiyanın təzyiqi bu və ya digər şəkildə özünü biruzə verməkdədir. Ümumiyyətlə, siyasi məsələlərdə parçalanmaya yol vermək olmaz. Halbuki, Qazaxıstan və Mərkəzi Asiya dövlətləri Rusiyanın rəhbərlik etdiyi, Ermənistanın da daxil olduğu Avrasiya Təhlükəszlik Şurası, Ali Avrasiya İqtisadi Şurası kimi təşkilatlarda üzvdürlər.

M: Sizə elə gəlmirmi, nə qədər ki, vahid türk əlifbası və ortaq dil problemi öz həllini tapmayıb, türk topluluqlarının inteqrasiyası qeyri ciddi mahiyyət daşıyacaq? Hələ Türk taixinə baxışdan danışmaq belə istəməzdik.

F.Ə: Vahid türk əlifbası, ortaq dil və tarix istiqamətində ortaq məxrəcə gələ bilməməmiz, həqiqətən, ürək ağrıdır. Lakin bu məsələnin həlli istiqamətində Türk akademiyasının təsisindən sonra müəyyən addımlar atılmışdır. Bununla belə burada da Rusiya, ABŞ, AB və Çin kimi dövlətlərin təzyiqi ciddi məsafə qət etməyə imkan vermir.
Bəhsi gedən bu üç problem arasında ən çox irəliləyiş türk tarixi ilə bağlıdır. Hazırda türk akademiyası bütün türk dövlətlərində tədris olunacaq tarix dəsliklərinin ərsəyə

gəlməsi üçün məlumtlar toplamaqdadır. Buradakı problem türklərin keçmiş tarixinə baxış fərqliliyindən ibarətdir. Bizə miras buraxılmış tarixin kim tərəfindən yazılması və bu yazarların hansı dünyagörüşünə malik olması faktı da bizi ciddi düşünməyə vadar edir. Buna görə də bütün detallar incəliklə irdələnir. Məqsəd bütün türk toplumlarını razı salacaq məxrəcə gətirməkdir.

Türk əlifbasına gəlincə, bildiyiniz kimi hər nə qədər orta çağda türklər ərəb əlifbasından istifadə etsələr də, sonralar ayrı-ayrılıqda latın, kiril, hətta Çinin timsalında heroqlif yazı növündən istifadə etməyə başlamışlar. Hazırda latın əlifbası üzərindən belə bir ortaq yazı nümunəsi qurmağa çalışırıq. Müəyyən adımlar da atılıb. Azərbacan, Özbəkistandan sonra Qazaxıstanın da bu istiqamətdə addımlar atması sevindirici haldır. Bununla belə problemlər hələ də qalmaqdadır. Belə ki, Qırğızıstanın hələ də kiril əlifbasından istifadə etməsi işi bir qədər yoxuşa sürür.

Problem tək bundan ibarət deyil, Azərbaycan, Türkiyə, Türkmənistan, Özbəkistan və Qazaxıstan arasında da mübahisəli məsələlər var. Bu da bəzi hərflərin yazılışında və səslərdədir. Bu cür elmi mübahisələr, eləcə də Rusiya və Çinin timsalında xarici təzyiqlərlə yanaşı, daxildə bəzi qaragüruh qüvvələr də bu istiqamətdə işlərin sürətlənməsinə əngəldir.

Ortaq türkcəyə gəlincə, burada problem daha ciddidir. Bildiyiniz kimi türkcəmiz şərq və qərb olmaqla iki ağıza ayrılır. Qərb ağzı Oğuz türkcəsidir, şərq ağzı isə Qıpçaq və ya Cağatay türkcəsidir. Bu iki ağız arasında inteqrasiyadan öncə, hər ağız öz içində yaxınlaşma olmalıdır. Daha sonrakı mərhələdə isə bu iki ağızdan ortaq türkcənin formalaşması vüsət almalıdır.Yəni artıq bir-birini anlamayacaq bir səviyyəyədə olan Türk toplumlarını bu vəziyyətdən çıxarmaq üçün fikrimizcə, məktəblərdə birinci sinifdən etibarən milli türkcələrlə( özbəkcə, qazaxca, qırğızca və. s) bərabər ortaq türkcə də tədris olunmalıdır. Yəni xarici qüvvələrin basqısa rəğmən, burda Türk dövlətləri öz iradələrini sərgiləməlidirlər.

M: O zaman bu kimi faktların Türk dünyasının inteqrasiyasında ən ümdə əngəl olduğu fikri ilə razısınız. Yoxsa problemin həllində öncəliyi siyasətə verirsiniz?

F.Ə: Siyasi faktoru görməzdən gəlmək olmaz. Türk dövlətlərinin dərin hərbi-siyasi inteqrasiyaya gedə bilməməsinin səbəbi bəhsi gedən faktordur. Son iki əsrdə çar Rusiyasının, sonralar sovetlərin, indi isə Rusiya Federasiyasıının, həmçinin, Böyük Britaniya, hazırda isə onun uzantısı olan Amerika Birləşmiş Ştatlarının ən çox mübarizə apardığı və dünya gücləri arasından vurub çıxartmağa çalışdığı dövlətlər məhz Türk toplumlarına məxsus ölkələr olmuşdur. Unutmayaq ki, Rusiya və Qərbin həyata keçirdiyi siyasət nəticəsində Osmanlı, Səfəvi, Qacarlar kimi Türk dövlətləri süquta uğradı. Zaman-zaman güclənən bu və ya digər imperialist güclər türklərə qarşı mübarizədə sanki estafet çubuğunu bir-birinə ötürməklə məşğuldurlar.
30 illik tənəzzüldən sonra, Rusiya yenidən güc toplamaqdadır. İrəlidə bu dövlətin öz imperiya maraqlarını gerçəkləşdirməsi üçün post-sovet türk respublikalarına qarşı yeni oyun oynamayacağının hər hansı zəmanət yoxdur.
Bir sözlə, Kreml və Ağ Evin Türk dünyasına münasibətində həyata keçirdikləri siyasətdə heç bir fərq yoxdur. Fərq onların özünəməxsus dövlət maraqlarındadır. Bu anlamda güclü Rusiya Federasiyasının və ya ABŞ-ın varlığı Türk dünyasına yaxşı heç nə vəd etmir.
Son zamanlar post-sovet Türk respublikalarında Rus dilinə marağın artması, bu ölkələrdəki beşinci kolonun fəallaşmasına da təsadüf kimi baxmaq doğru olmazdı.
Rusiyanın Türkiyə ilə yaxınlaşmasını da müşahidə etməkdəyiz. Hələlik,bütün bunların bizə nə vəd etdiyini bilmirik. Ona görə də Türk respublikaları bu kimi məsələlərdə həssas olmalıdır, qarşılıqlı əməkdaşlıq nəticəsində mümkün təhlükələrin qarşısını ala bilməlidir. Təbii ki, bununla mən yenidən Sovetlər birliyinin qurulacağını demək istəmirəm. Sadəcə, Türk varlığımızın, kimliyimizin qorunmasında, dövlətçiliyimizin, dövlət ənənələrimizin, hakimiyyətimizin yaşaması üçün ayıq-

sayıq olmalıyıq.

M: Təbii Türk dövlətlərinin hər birinin ayrı-ayrılıqda özünə görə ciddi problemləri var. Bu problemlərin həlli istiqamətində Türk respublikaları bir-birlərinə yetərli dəstək ola bilirmi, kimi şablon sual vermək niyətimiz yoxdur.
İstərdik ən ciddi faktordan danışasınız, Kremildən. Yuxarıda siz özünüz də bu barədə danışdınız. Amma istərdik, məsələyə daha əhatəli baxaq. Sizə görə mövcud siyasi vəziyyətdə Türk dövlətlərinin taleyi necə olacaq? Statistika göstərir ki, Rusiya Federasiyasının gücü artıq Sovet İttifaqındakı səviyyəyə çatıb. Bu güc qarşısında Türk dünyasının atacağı addım nədən ibarət ola bilər?

Faiq ELEKBERLI.

Copyright © 2019. Kafkasya Stratejik Araştırmalar Merkezi · Tüm hakları saklıdır. Türkmen dili